# KİTABXANA-İNFORMASİYA FƏALİYYƏTİ ÜZRƏ KADR HAZIRLIĞININ MÜASİR TƏLƏBLƏRİ

**Nazlı Həsənova**

*BDU, Kitabxanaşünaslıq kafedrasının dosenti, texnika üzrə fəlsəfə doktoru*

Elm və texnikanın sürətli inkişafı, əmək məşğulluğunun strukturunun dəyişməsi, insan fəaliyyətinin bütün sahələrinin rəqəmsallaşdırılması müxtəlifprofilli mütəxəssislərə olan peşəkarlıq tələblərini də artırır. Kitabxanaçı peşəsi hal-hazırda transformasiya, qlobal yenidən düşünmə, kitabxana sahəsinə aid işçilərinin səlahiyyətlərinə dair sorğuların ətraflı strukturlaşdırılması mərhələsindədir. Kitabxana-informasiya fəaliyyəti əməkdaşlarının peşəkar səriştəsi kitabxananın uğurlu inkişafının əsas meyarlarından biri kimi əhali üçün müasir informasiya məkanının mərkəzi olmasıdır. Bununla əlaqədar olaraq aktual sual yaranır: müasir kitabxanaçının əhalinin həyatında kitabxananın rolunu artırmaq, müxtəlif hədəflərin maraqları naminə daha səmərəli layihələr həyata keçirmək, eləcə də müasir kitabxananın kadr siyasətini formalaşdırmaq üçün hansı səlahiyyətlərə malik olması lazımdır?

Eyni zamanda, kitabxanaların strateji inkişafı üçün gələcəyi proqnozlaşdıraraq işləmək, yəni əmək bazarında tələb olunan səriştələrin mənimsənilməsi və mövcud bacarıqların daim yenilənməsi vacibdir. Buna müvafiq olaraq ali təhsil və orta ixtixas müəssisələrində tələbələrin hazırlığı, yeni işçilərin əmək fəaliyyətində işə adaptasiyası, mövcud işçilərin ixtisasartırması, ən perspektivli namizədlərin işə götürülməsi, müasir kitabxanaların fəaliyyətində rəqəmsal araşdırmaların artırılması kimi müxtəlif məsələlərə diqqət yetirilir.

Kitabxana-informasiya fəaliyyətində kadr hazırlığının səmərəli təşkil edilməsi müasir tələblərə riayət olunması ilə təmin oluna bilər. Bu tələblərdə xarakterizə edilən bacarıq və kompetensiyalar aşağıdakılardır:

- avtomatlaşdırılmış kitabxana-informasiya sistemi (AKİS) ilə iş texnologiyalarından, kitabxana-informasiya xidmətlərinin bütün proseslərinin həyata keçirilməsində digər rəqəmsal texnologiyalardan və texniki vasitələrdən istifadə etmək;





- mütaliə və informasiya mədəniyyətinin, informasiya və media savadlılığının, həmçinin rəqəmsal savadlılığın formalaşdırılması üzrə istifadəçilərlə fərdi və qrup işlərini həyata keçirmək;
- kitabxana və informasiya xidmətlərinin həyata keçirilməsi zamanı informasiya təhlükələrindən qorunmaq və informasiya təhlükəsizliyini təmin etmək üçün mühafizə texnologiyalarını tətbiq etmək;
- tədris, mədəni-maarif, mədəni-idrak, tədbir fəaliyyətlərinin hazırlanması və aparılması metodikasından istifadə etmək;
- kitabxana fondunun cari və retrospektiv komplektləşdirilməsi üçün texnoloji prosesləri həyata keçirmək;
- sənədlərin profilaktik və mərhələli konservasiya texnologiyalarından istifadə etmək, həmçinin sənədlərin profilaktik təmirini və bərpasını həyata keçirmək;
- informasiya-kommunikasiya texnologiyalarından, kitabxana saytlarından, sosial şəbəkə xidmətlərindən istifadə etməklə informasiya xidmətləri göstərmək;
- metodiki xidmət və layihə işlərini həyata keçirmək;
- struktur bölməni idarə edərkən idarəetmə qərarları qəbul etmək üçün mövcud vəziyyət haqqında analitik və statistik məlumatları yaratmaq, ümumiləşdirmək, sistemləşdirmək və təhlil etmək.

Kitabxana fəaliyyətində həm menecerlərin, həm də ayrı-ayrı işçilərin peşəkar və yüksək peşəkar səlahiyyətlərinin davamlı formalaşdırılması prosesində iştirakını təmin etmək vacibdir. Bütün işçilər üçün ümumi təlim və şəxsi peşəkar inkişaf proqramlarının tərtib edilməsini, təlimin məqsəd və vəzifələrinin kitabxananın və şəxsi karyeranın inkişaf strategiyası ilə əlaqəsinin təmin edilməsini, eləcə də yeni reallıq və sürətli dəyişikliklər şəraitində işə uyğunlaşma bacarığının formalaşmasını təmin etmək lazımdır.